**“Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1820; 2019, № 1, maddə 42, № 4, maddə 591, № 7, maddə 1179) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 34.1-ci, 34.2-ci və 34.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

“34.1. Hesablama Palatasının sədri 3150 manat məbləğində aylıq vəzifə maaşı alır.

34.2. Hesablama Palatası sədrinin müavini 2800 manat məbləğində aylıq vəzifə maaşı alır.

34.3. Hesablama Palatasının auditorları 2625 manat məbləğində aylıq vəzifə maaşı alırlar.”;

1.2. 34.4-cü maddədə “bir aylıq vəzifə maaşı” sözləri “hər ay vəzifə maaşlarının iki misli” sözləri ilə əvəz edilsin;

1.3. 35.2-ci maddə ləğv edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il iyulun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 iyun 2022-ci il
№ 570-VIQD